# XƏZƏR UNİVERSİTETİ "DÜNYA" MƏKTƏBİ

*Mərufə Mədətli,*

*"Dünya" məktəbinin direktoru*

**Təhsil elə həyatın özüdür**



Qlobal dünyanın insanları kimi bu gün biz özümüzün milli varlığımızı saxlamaqla yanaşı, həm də ümumi düşüncə tərzinə, inteqrativ təfəkkürə sahib olmalı, inkişafı daha geniş miqyasda görməyi bacarmalıyıq.

Qloballaşan dünyada insan inkişafının qiymətləndirilməsində təhsil göstəriciləri xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanda ilk özəl ali məktəb olan Xəzər Universitetinin təsisçisi professor Hamlet İsaxanlı "Dünya" məktəbinin əsasını qoymaqla, humanist prinsiplərə söykənən inteqrativ xarakterli yeni təhsil müəssisəsinin yaradılmasının zəruri olduğunu sübut etdi.

1998-ci ildə açılmış və Təhsil Nazirliyinin 070977 saylı lisenziyası əsasında fəaliyyət göstərən "Dünya" məktəbi ölkəmizdə ümumi orta təhsilin inkişafına öz töhfəsini vermişdir.

Məktəbdə həyata keçirilmiş bir sıra yeniliklər məktəb idarəetmə sisteminin təkmilləşməsinə, tədrisin keyfiyyətinin yüksəlməsinə xidmət etmişdir.

Fəaliyyət göstərdiyi illər ərzində "Dünya" məktəbi ən müasir təlim metod və texnologiyalarının tətbiqinə əsaslanıb, dünyanın qabaqcıl təhsil təcrübəsinə inteqrasiya edilməsinə xüsusi fikir vermişdir. Bu məqsədlə "Dünya" məktəbinin təhsil ideologiyası ilə məşğul olan mütəxəssisləri xarici ölkələrdə - ABŞ, Böyük Britaniya,Türkiyə, Almaniya , Birləşmiş Ərəb Əmirlikləri və s. ölkələrdə təcrübə mübadiləsi keçmiş, qabaqcıl xarici məktəblərin iş təcrübəsini öyrənmiş və onları ölkəmizin təlim tələblərinə uyğun şəkildə tətbiq etməyə çalışmışlar.

"Dünya" məktəbi öz fəaliyyətində uğurlu olmaq üçün aşağıda qeyd olunan şərtləri əsas götürür:

1.Savadlı və nüfuzlu rəhbər;
2.Peşəkar müəllimlər;
3.Həvəsli şagirdlər;
4.Məktəbə bağlı olan valideynlər;
5.Təlim standartları;
6.Ciddi tədris kurrikulumu;
7.Şagirdlərin nailiyyətləri, təlim nəticələri;
8.Akademik missiya;
9.Güclü ünsiyyət əlaqələri;
10.Şagirdlər və işçilər üçün əlverişli mühit;

Məktəb şərtlərin tamlığını çox vacib sayır, çünki bir şərtin olmaması uğursuzluğa aparır.

"Dünya" məktəbində şagirdləri mümkün qədər çox öyrətmək əvəzinə, fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yöndə qurulur.

Məktəb şagird üçündür. "Dünya" məktəbi tədris prosesini təşkil edərkən böyük mahiyyətə malik olan bu sadə həqiqəti əsas götürür.

"Dünya" məktəbinin özü bir cəmiyyətdir.Şagirdlər bu cəmiyyətin qurulmasında fəal iştirak edirlər.

Rəhbərlik, müəllimlər tez - tez şagirdlərlə üz-üzə



əyləşib söhbət edirlər, onların problemlərini, istəklərini, maraqlarını öyrənir və onlara hər bir sahədə, istər məktəbdə, istərsə də məktəbdənkənar vaxtlarda yardımçı olurlar. Uşaqların öz təhsilləri sahəsində maraqları müəllim və bütövlükdə məktəbin maraqları ilə üst-üstə düşür.

Məktəbdə şagirdlərin fərdi özünütəhsili həyata keçirilir, çünki müasir həyatda böyük uğurlar qazanmaq üçün bacarıq daha vacibdir. "Dünya" məktəbində şagirdlərə

biliklə yanaşı, bacarıq və vərdişlər də öyrədilir.

"Dünya" məktəbi uşaqlara öyrədir ki, onlar öz gələcəkləri üçün məsuliyyət daşımalıdırlar, məktəb isə bu işdə onlara yol göstərən köməkçidir.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim- tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

Müntəzəm olaraq, rəhbərliyin, müəllimlərin və valideyn assosiasiyasının üzvlərinin birgə iclasında tərbiyə işində yaranmış çətinliklər müzakirə edilir, nizam-intizamda yol verilmiş nöqsanların səbəbləri aydınlaşdırılır və onların aradan qaldırılması yolları müəyyənləşdirilir.

Məktəbdə müəllimlərin, xüsusilə gənc müəllimlərin pedaqoji qabiliyyətlərinin inkişafı və təkmilləşdirilməsi hər zaman diqqət mərkəzindədir. Hər il sentyabr ayının əvvəlində məktəbdə seminarlar təşkil edilir və iştirakçı müəllimlərə sertifikatlar verilir.

2012 - 2013 - cü tədris ilinin əvvəlində Xəzər Universitetinin təşkilatçılığı ilə "Dünya" məktəbində "kurrikulum islahatı" üzrə 10 günlük təlim kursları təşkil edilmişdir. Əlliyə yaxın müəllimin fəal iştirak etdiyi təlim kursları çox yüksək səviyyəli təlimçilər tərəfindən aparılmışdır.Sonda müəllimlər imtahan verərək sertifikatlar qazanmışlar.

**Maddi – texniki baza**

"Dünya" məktəbinin uğurlu bir məktəb kimi fəaliyyət göstərməsində ən vacib şərtlərdən biri məktəb binasında tədris üçün çox əlverişli şəraitin olmasıdır.

Beşmərtəbəli məktəb binasının müasir texniki vasitələr, proyektorlar, elektron lövhələr, kompyuterlər, sürətli internet sistemi ilə təmin olunmuş sinif



otaqları, laboratoriyalar, ən müasir kompyuterlərlə təchiz edilmiş iki kompyuter laboratoriyası, yüksək səhiyyə qaydalarına cavab verən həkim otağı, gigiyenik qaydalara cavab verən yeməkxana, bütün lazımi avadanlıqlarla təchiz edilmiş idman zalı vardır. Məktəbin 150 nəfərlik konfrans zalı, musiqi studiyası, 300 nəfərlik konsert salonu vardır.

Məktəbin 8 ibtidai sinfində 1 şagird -1 kompyuter layihəsi həyata keçirilmişdir. Bütün kompyuterlər internet xəttinə qoşulmuşdur.

Məktəbdə Ulu Öndərimiz Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən guşə diqqəti cəlb edir. Ümummili liderimizin şərəfli həyat yolu şagirdlər üçün bir örnəkdir. Dəhliz divarlarında müasir təlim və texnologiyaları, innovasiyaları və məktəbin fəaliyyətini əks etdirən lövhələr səliqəli və səviyyəli tərtib edilmişdir.

Şagirdlərin sağlamlığı hər zaman diqqət mərkəzindədir. Səhətində problem olan şagirdlərə ilkin tibbi yardım göstərilir, valideynlərlə əlaqə saxlanılır, lazımi həkim məsləhətləri verilir. Siniflərdə şagirdlərin gigiyenik qaydalara əməl etmələri, gün ərzində rahat geyimdə olmaları, təmizliyə riayət etmələri hər zaman həkimin nəzarətindədir. Həkim otağının yanındakı lövhədə müntəzəm olaraq sağlamlığı qorumaq, ziyanlı vərdişlərə meyl etməmək barədə tövsiyələr verilir. Lövhədə həftəlik nahar menyusu da öz əksini tapır. Şagirdlər gündə iki dəfə çayla və bir dəfə günorta isti naharla təmin olunurlar.

Həftəlik nahar menyusu şagirdlərin istəyi nəzərə alınaraq həkim nəzarəti altında hazırlanır.

Şagirdlərin məktəbə rahat gediş – gəlişini təmin etmək üçün məktəbin nəqliyyat servisi vardır. Nəqliyyat servisi həmçinin tədrislə bağlı ekskursiyaların, gəzintilərin həyata keçirilməsində rahatlıq üçün geniş imkanlar yaradır.

Müntəzəm olaraq maraqlı uşaq ədəbiyyatı və metodik-pedaqoji ədəbiyyatla zənginləşdirilən məktəb kitabxanası şagirdlərin oxu texnikasının, mənəviyyat və dünya görüşünün inkişafında, həmçinin müəllimlərin pedaqoji fəaliyyətinin inkişafında, təkmilləşdirilməsində böyük rol oynayır. Kitabxanada elektron kataloq fəaliyyət göstərir. Dünya standartlarına cavab verən və artıq məşhur olan Xəzər Universitetinin kitabxanası da hər zaman şagirdlərə və müəllimlərə xidmət göstərir.

**Qəbul qaydaları və tədrisin təşkili**

"Dünya" məktəbinə şagird və müəllim qəbulu elanla bildirilir. Məktəbə şagirdlər müsabiqə yolu ilə seçilirlər. Müsabiqədə II- X sinif şagirdlərinin bilik səviyyələri təhsil aldıqları sinfə uyğun yazılı test imtahanı ilə yoxlanılır. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Birinci sinfə qəbul olmaq istəyən uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir. Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür. "Dünya" məktəbinə müəllimlər də müsabiqə yolu ilə seçilirlər. Müsabiqə üç mərhələdə aparılır:

1. İxtisas fənni üzrə test;
2. Müsahibə;
3. Nümunə dərs;

Bu mərhələləri uğurla keçən müəllimlər məktəbin tələbatından asılı olaraq işə qəbul olunurlar.

Məktəbdə çox sayda professor və fəlsəfə doktorları çalışır.

Məktəbdə təhsil üç pillədən ibarətdir:

1. İbtidai təhsil pilləsi – I-IV siniflər;
2. Ümumi orta təhsil pilləsi – V-IX siniflər;
3. Tam orta təhsil pilləsi – IX-XI siniflər;

Təhsilin hər pilləsində tədris prosesini düzgün qurmaq üçün şagirdlərin bilik və bacarıqları, maraq dairəsi və istəyi nəzərə alınır.

Məktəbin spesifik xüsusiyyətlərindən biri siniflərdə şagird sayının az olmasıdır. Bu isə hər bir şagirdə fərdi müəllim nəzarətinin daha çox olmasını təmin edir.

Məktəbdə şagird təlim-tərbiyə prosesinin subyekti kimi götürülür. Şagirdlərin prosesin subyektlərinə çevrilməsi təhsil prosesinin idarə olunmasına yeni münasibət yaratmışdır. Müəllimlərdə yeni təfəkkür tərzi formalaşmışdır.

Dərs prosesində şagirdlərin qrup halında işləməsi geniş tətbiq edilir, çünki bu metod dərs prosesini maraqlı edir, öz fikirlərini əsaslandırmaqla, hər bir şagirddə özünə inam yaradır, təhliletmə və



əməkdaşlığı tənzimləyir.

Dərs prosesinin elmi-nəzəri səviyyəsini yüksəltmək üçün "Dünya" məktəbində müəllim-şagird münasibətlərinin düzgün qurulmasına xüsusi fikir verilir. Bu məqsədlə müəllimlər hər bir şagirdin zəif cəhətlərini, dərketmə qabiliyyətini və digər xüsusiyyətlərini nəzərə alaraq işləyirlər, dərslərdə geri qalan şagirdlər üçün müntəzəm olaraq əlavə məşğələlər təşkil edirlər.

Şagirdlərdə məktəbə, müəllimlərə inam hissi güclüdür və onlar məktəbin nə qədər önəmli olduğunu dərk edirlər. Ailədən sonra məktəb şagirdlər üçün çox sevimli və dəyərli bir ocağa çevrilmişdir. Şagirdlər əsl bilik və savadın qazanılması üçün məktəbdə hər bir şəraitin olduğunu görür və bundan bəhrələnirlər.

Məktəbin tədris planı hazırlanarkən Azərbaycan Respublikası Ümumtəhsil məktəbləri üçün Tədris Planı əsas götürülür. Bununla yanaşı, məktəbin öz tədris prosesi də nəzərə alınır. Tədris Planı Xəzər Universitetinin Təhsil Departamenti və Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

"Dünya" məktəbində belə bir təcrübə həyata keçirilir: eyni siniflər üzrə şagirdlər bilik səviyyələrinə görə qruplaşdırılır. Məqsəd şagirdlərin hüquqlarını pozmadan bilik və bacarıqlarını əsas tutaraq, onların hamısını dərs prosesinin fəal iştirakçısına çevirməkdir.Məktəbdə tam orta təhsilin son iki ilində şagirdlərin ixtisasyönümlü təhsili həyata keçirilir, gələcək ixtisas seçimlərini etmiş şagirdlər ixtisas qruplarına ayrılır, Tədris Planında verilmiş fakültativ, fərdi və qrup məşğələləri,seçmə fənlər hesabına ixtisas fənləri üzrə dərslər təşkil edilir.

Bununla yanaşı, şagirdlər X və XI sinif materialları tədris edilən ümumi dərslərdə birləşirlər. Həm dərslərdə, həm də ixtisas fənləri üzrə məşğələlərdə maraq və məsuliyyətlə çalışan şagirdlər artıq məktəbə bağlanır, ömür boyu xatırlanacaq son məktəb illərinin sevincini yaşayır və bəhrəsini görürlər.

"Dünya" məktəbində şagirdlərin həvəsləndirilməsinə xüsusi fikir verilir. Hər bir şagirdin bacarıq və qabiliyyəti üzə çıxarılır, inkişaf etdirilir. İl boyu bilik yarışmaları, fənn olimpiadaları, inşa yazı müsabiqələri, rəsm əsərlərindən, əl işlərindən ibarət sərgilər və s. təşkil edilir. Qaliblər mükafatlandırılır. Dərs ilinin sonunda hər bir şagird öz spesifik bacarıq və qabiliyyəti sayəsində qazandığı uğurlara görə diplomlarla təltif edilir.

Məktəbdə əxlaq fənninin tədrisi şagirdlərə yüksək əxlaqi keyfiyyətlərin aşılanması prosesini daha da sürətləndirir. Nitq mədəniyyəti fənninin tədrisi isə cəmiyyətimizin gələcəyi üçün gözəl nitq qabiliyyətinə malik gənclərin yetişməsində əhəmiyyətli rol oynayır.

Məktəbdə şagirdlərin və valideynlərin istəyi ilə şahmat, musiqi, rəqs, xor, karate, informatika dərnəkləri fəaliyyət göstərir. Dərnəklərin fəaliyyəti yüksək səviyyədədir.

"Dünya" məktəbində diqqəti cəlb edən cəhətlərdən biri də şagirdlərin hərtərəfli şəxsiyyət kimi formalaşmasında eyni dərəcədə vacib olan musiqi, təsviri incəsənət, fiziki tərbiyə dərslərinin yüksək səviyyədə təşkili və onların günün ikinci yarısında keçirilməsidir. Bu dərslərdə şagirdlər işləməklə yanaşı, həm də dincəlirlər. Musiqi dərslərində şagirdlərə musiqi təhsili verməklə yanaşı, onlara milli və xarici rəqslər də öyrədilir.

Məqsədli ədəbi-bədii gecələrin, tematik ekskursiyaların təşkili şagirdlərdə işgüzarlıq, bir-birinə hörmət, məktəbin mənafeyini qorumaq kimi yüksək əxlaqi keyfiyyətlər aşılayır.

**Xarici dil departamenti**

Məktəb xarici ölkələrin təhsil sisteminə inteqrasiyanın vacibliyini nəzərə alaraq, xarici dillərin tədrisinə çox önəm verir. Bu məqsədlə məktəbdə xarici dil departamenti fəaliyyət göstərir. Departamentin əsas missiyası xarici dillərin tədrisinin dünya standartlarına uyğun qurulmasına və yüksək keyfiyyətinin təmin edilməsinə nail olmaqdır. Məktəbdə ən çox tədris edilən

ingilis dilidir. İngilis dili fənni xarici dərsliklər əsasında tədris olunur.

Şagirdlərin ingilis dilində şifahi nitqinin inkişaf etdirilməsinə xüsusi fikir verilir. Bütün siniflərdə "Belt Study System" tətbiq edilir. Şagirdlər müstəqil olaraq kompyuterlə ingilis dili səviyyəsini təkmilləşdirirlər. Məktəbdə müntəzəm olaraq bütün şagirdlərin iştirakı ilə "Danışıq klubu" təşkil edilir. Şagirdlər özlərini ingilis dilli mühitdə hiss edirlər.

2011-2012-ci tədris ilinin sonunda məktəbdə şagirdlər üçün İngiltərədən dəvət olunmuş dil müəllimlərinin iştirakı ilə həftədə 30 saat olmaqla 2-3 həftəlik dil kursları təşkil edilmişdir. Kursun sonunda şagirdlərin bilik və bacarıqlarını nümayiş etdirən maraqlı tədbir ingilis dilində onların şifahi



nitqinin xeyli inkişaf etdiyini sübut etmişdir. Bu ənənənin hər il davam etdirilməsi nəzərdə tutulmuşdur.

"Dünya" məktəbində ingilis, rus dillərindən başqa, şagirdlərin seçimi ilə italyan, alman, ərəb dilləri də tədris olunur. "Dünya" məktəbi italyan dilinin tədris olunduğu ilk məktəbdir.

**Qiymətləndirmə və Monitorinq şöbəsi**

Qiymətləndirmə və Monitorinq şöbəsi öz işini dünya qiymətləndirmə standartlarına uyğun qurur. Tədris prosesində qiymətləndirmənin bütün növlərinin (diaqnostik, formativ, summativ) düzgün tətbiq edilməsinə xüsusi nəzarət mexanizmi həyata keçirilir.

Qiymətləndirmə və Monitorinq şöbəsinin əsas məqsədi il boyu müntəzəm olaraq fənlər üzrə şagirdlərin bilik səviyyəsinin yoxlanılmasını təşkil etmək və onun qiymətləndirilməsində obyektivliyi təmin etməkdir. Belə mərkəzləşdirilmiş qiymətləndirmə sistemi imkan verir ki, güclü və zəif hazırlıqlı şagirdlər vaxtında aşkarlansın və onlara fərdi yanaşma təmin edilsin.

Dərs ilinin əvvəlində siniflər üzrə bütün şagirdlərin diaqnostik qiymətləndirilməsi aparılır. Məqsəd yay tətilindən qayıtmış şagirdlərin bilik səviyyəsini bir daha yoxlamaqdır. Dərs ilinin əvvəlində bilikdə geriliklərin, boşluqların aradan qaldırılması yeni dərs ilində təhsilin keyfiyyətli qurulması üçün zəmin yaradır.

Məktəbdə biliklərin qiymətləndirilməsi gündəlik deyil, həftəlik (summativ) aparılır, bununla şagirdlərdə təlimə şüurlu münasibət yaradılır və onlara qiymət üçün deyil, bilik üçün oxumaq psixologiyası aşılanır.

İl ərzində məktəb üzrə aparılan mərkəzləşdirilmiş imtahanlar Qiymətləndirmə və Monitorinq şöbəsi tərəfindən həyata keçirilir:

| | |
|---|---|
| Aralıq test 1 - | oktyabr |
| Yekun test 1 - | dekabr |
| Aralıq test 2 - | mart |
| Yekun test 2 - | iyun |

İmtahana nəzarət qeyri-ixtisas fənn müəllimləri tərəfindən aparılır. Valideynlərdən nümayəndələr də, bir qayda olaraq, imtahan prosesinə nəzarətdə iştirak edirlər.

Qiymətləndirmə və Monitorinq şöbəsi şagird biliklərinin qiymətləndirilməsinin elmi əsaslar üzərində qurulmasını təmin etməklə yanaşı, məktəb fəaliyyətində özünüqiymətləndirməni ən mühüm şərtlərdən biri hesab edir. Bu isə hər zaman təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Məktəbə qəbul olmaq istəyən yeni şagirdlərin, iş üçün müraciət edən müəllimlərin bilik səviyyəsinin yoxlanılması da bu şöbə tərəfindən aparılır. Eyni zamanda Qiymətləndirmə və Monitorinq şöbəsi qiymətləndirmə mexanizminin, qiymətləndirmə üsullarının təkmilləşdirilməsində, fənlər üzrə testlərin keyfiyyətli hazırlanmasında aparıcı rol oynayır.

**İB Diplom Proqramı**

Dünya" məktəbi 2009-cu il yanvarın 16-da Beynəlxalq İB Məktəbi statusunu qazandı. "Dünya İB School" adı ilə Beynəlxalq Bakalavr Təşkilatı – İnternational Baccalaureate Organization – İBO-nun üzvü oldu, yəni Beynəlxalq məktəb şəbəkəsinə qoşuldu. "Dünya" məktəbi 2010-2011-ci tədris ilinin 15 sentyabr tarixindən İBO-nun Diplom Proqramını tətbiq etməyə başlamışdır.

2011-2012-ci tədris ilinin sonunda ilk 3 məzun İB Diplom Proqramını uğurla bitirərək, beynəlxalq diplom almış və İngiltərənin tanınmış Universitetlərində tələbə olmaq hüququnu qazanmışlar. 2012-2013-cü tədris ilində İB Diplom Proqramında 11 şagird təhsil alır. IB Diplom Proqramında fənləri tədris edən müəllimlər müntəzəm



olaraq xarici tədris müəssisələrində öz bilik və

bacarıqlarını təkmilləşdirirlər. IB Diplom proqramında xaricdən dəvət olunmuş müəllimlər də dərs deyir.

**Şagird Elmi Araşdırmalar Mərkəzi**

Şagirdlərdə elmə, tədqiqat işlərinə maraq yaratmaq, bu sahədə onların bacarıqlarını formalaşdırmaq və inkişaf etdirmək məqsədilə şagirdlərin öz təşəbbüsləri ilə Şagird Elmi Araşdırmalar Mərkəzi yaradılmış və uğurla fəaliyyət göstərir. Elmi Mərkəzin rəhbəri məktəbin dil - ədəbiyyat müəllimi, filologiya üzrə fəlsəfə doktoru Güntəkin Binnətovadır. Şagirdlər tez - tez müəllimlərin rəhbərliyi ilə elmi - tədqiqat institutlarına gedir, elm adamları ilə söhbət edir, elm sahəsində baş verən yeniliklər barədə məlumat alırlar. Xəzər Universiteti tərəfindən təşkil edilmiş elmi konfranslarda müntəzəm olaraq yuxarı sinif şagirdlərinin iştirakı təmin edilir.

Şagird Elmi Araşdırmalar Mərkəzinin işi hər il məktəbdə keçirilən fənn aylıqlarında özünü daha da parlaq şəkildə göstərir. Fənn müəllimlərinin və şagirdlərin birgə səyi ilə təşkil edilmiş konfranslara tanınmış elm xadimləri də dəvət olunurlar. Şagirdlərin sadə də olsa, məzmunlu və maraqlı elmi tədqiqat işləri elm adamlarında böyük maraq yaradır. Şagirdlərin arasında ən yaxşı tədqiqat işləri məktəb rəhbərliyi tərəfindən



diplomla və hədiyyə ilə mükafatlandırılır.

2012-ci ilin aprel ayında uzun illər "Dünya" məktəbində ədəbiyyat müəllimi işləmiş və kollektivin sevimlisinə çevrilmiş tanınmış alim, folklorşunas, Dədə Qorqud dastanının əvəzedilməz tədqiqatçısı Bəhlul Abdullanın xatirəsinə həsr edilmiş konfransın işi iştirakçılar tərəfindən yüksək qiymətləndirilmişdir.

**Beynəlxalq əlaqələr**

"Dünya" məktəbinin beynəlxalq əlaqələrinin yaranmasında Xəzər Universiteti mühüm rol oynayır. Xəzər Universiteti ilə birgə layihələr işləyən, təcrübə mübadiləsi həyata keçirən xarici təhsil müəssisələrinin nümayəndələri "Dünya" məktəbinə gəlib onun fəaliyyəti ilə yaxından tanış olur, öz təhsil müəssisələri barədə şagirdlərə ətraflı məlumat verirlər.

2011-2012-ci tədris ilində Kanadanın Toronto, Amerikanın Vaterloo, Türkiyənin Koç, Lomonosov adına Moskva Dövlət Universitetlərinin, İtaliyanın Milan Dizayn Akademiyasının təhsil işçiləri "Dünya" məktəbində olmuş, tədris sistemi ilə yaxından tanış olaraq şagirdlərlə görüşlər keçirmiş, "Dünya" təhsil sisteminə inteqrasiyanın əhəmiyyəti barədə ətraflı söhbətlər etmişlər.

Xarici təhsil mütəxəssisləri Xəzər Universitetinin rəhbərliyi ilə tez-tez "Dünya" məktəbində təcrübə mübadiləsi məqsədilə seminarlar təşkil edirlər.

İB Diplom Proqramında təhsil alan şagirdlər iki ildir ki, Türkiyənin İstanbul şəhərində hər il keçirilən "Biliyin nəzəri əsasları"na həsr edilmiş beynəlxalq konfransda maraqlı çıxışlar edirlər.

2011-2012-ci tədris ilində Amerikanın Kentaki ştatında "İnternational Art Exchange" layihəsi üzrə Fort Tomas ibtidai məktəbin şagirdlərinin rəsm sərgisi "Dünya" məktəbində, dünya məktəblilərinin rəsm sərgisi isə həmin məktəbdə nümayiş etdirmişdir. Hər iki məktəbin şagirdlərinə sertifikatlar verilmişdir.

"Dünya" məktəbinin bir çox şagirdləri yay tətilində Amerika, Kanada və İngiltərənin təhsil ocaqlarında təşkil edilmiş yay məktəblərində fəal iştirak edərək



ingilis dilində danışıq bacarıqlarını daha da təkmilləşdirirlər.

"Dünya" məktəbinin kollektivi hər zaman beynəlxalq əlaqələri genişləndirmək üçün dayanmadan çalışır.

**Layihələr**

"Dünya" məktəbi müntəzəm olaraq maraqlı layihələr həyata keçirir.

2011 - 2012 - ci tədris ilinin yay tətillərində "Dünya" məktəbinin müəllimləri Xəzər Universitetinin "2012-2013-cü tədris ilində V siniflərdə dərs deyəcək fənn müəllimləri üçün yeni ümumi orta təhsil

kurrikulumu üzrə təlim” layihəsində fəal iştirak edərək Azərbaycanın regionları üzrə təşkil edilmiş təlim kurslarında təlimçi kimi işləmişlər.

Bir neçə ildir ki, məktəbin müəllim və şagirdləri “Söz xəzinəsindən”adlı layihəni uğurla həyata keçirirlər. Hər tədris ilində bir və ya iki klassik şairimizin həyat və yaradıcılığına həsr olunmuş tədbirlər təşkil edilir.

2011 - 2012 - ci tədris ilində dahi klassik şairimiz Məhəmməd Füzulinin bədii yaradıcılığına həsr olunmuş musiqili ədəbi tədbir çox yüksək səviyyədə keçirilmişdir. Şagird və müəllimlərin professional çıxışları Azərbaycanın tanınmış ədəbiyyatşünasları və



incəsənət xadimləri tərəfindən böyük məhəbbətlə qarşılanmışdır.

“Dünya” məktəbi hər zaman xeyriyyə tədbirlərinin təşkilinə və həyata keçirilməsinə xüsusi önəm vermişdir. “Ümid gözləyən gözlərə doğru”layihəsi adı altında keçirilən tədbirlərin rolu böyükdür. Məktəbdə müəllimlərin, valideynlərin və şagirdlərin xeyriyyə tədbirlərini təşkil etməsi məktəbin cəmiyyətə inteqrasiyasının humanist əsaslar üzərində qurulduğunu göstərir və məktəb cəmiyyət üçün yararlı şəxsiyyətlər yetişdirdiyini bir daha sübut edir. Bu məqsədlə məktəbdə şagird yaradıcılığını əks etdirən satış sərgilərinin, konsert proqramlarının təşkili bir ənənəyə çevrilmişdir. Məktəb kollektivi tez - tez uşaq, qocalar evlərinə, imkansız ailələrə hədiyyələr və ərzaqlar aparır, maddi köməklik göstərir.

2009 -2010 –cu tədris ilində şagirdlər xeyriyyə konserti təşkil etmiş, yığılmış vəsaiti məktəbin maliyyə dəstəyi ilə birlikdə anadangəlmə iflic xəstəsi olan Şabran rayon sakini 16 yaşlı Ağamalıyev Rəsul Şakir oğlunun cərrahi əməliyyatına vermişlər.

3 ildir ki, “Dünya” məktəbi Rəsulun müalicəsinə maddi dəstək verir. Artıq onun səhhətində xeyli müsbət dəyişikliklər vardır.

Hər il «Vətən naminə» adlı silsilə tədbirlərin keçirilməsi şagirdlərimizin hərbi - vətənpərvərlik ruhunda böyüməsinə və Vətən tarixinə sevgisinin aşılanmasına xidmət edir.

Keçən tədris ilində isə şagird və müəllimlərimizin birgə səyi ilə respublikada ilk dəfə olaraq tədris filmi çəkilmiş və bu film “Uydurma erməni soyqırımı və erməniçilik”adlandırılaraq xalqımızın ən ağrılı probleminə həsr olunmuşdur.

Bu bir həqiqətdir ki, bu gün şagirdlərimizin ədəbiyyata, kitab oxumağa marağı aşağı səviyyədədir.

Mənəvi dəyərlərimizin inkişafında ədəbiyyatımızın rolu danılmazdır. Bu boşluğu aradan qaldırmaq məqsədilə “Dünya” məktəbi Firudin Bəy Köçərli adına uşaq kitabxanası ilə əməkdaşlığı həyata keçi rir. Məktəb və kitabxana çox maraqlı layihələr üzərində işləyir. Məqsəd şagirdlərdə zəngin ədəbiyyatımıza marağın yaradılmasıdır.

“Dünya” məktəbi “Tanınmış insanlarla görüş” adı altında silsilə tədbirlər həyata keçirir. Riyaziyyatçı alim, prof. H. İsaxanlı, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, Azərbaycan Respublikası Təhsil Şurasının sədri Əjdər Ağayev, xalq şairi N. Həsənzadə, bəstəkar Oqtay Zülfüqarov, tarixçi alim Boran Əzizli, kimyaçı alim, professor Vaqif Abbasov və s. tanınmış insanlarla keçirilən görüşlər dünyanı anlamaq istəyən şagirdlərin mənəviyyatca zənginləşməsinə, şagirdlərdə elmə marağın artmasına güclü təsir göstərir.

Dekabr ayının əvvəlində ”Dünya” məktəbində İngiltərədən dəvət olunmuş ingilis dili mütəxəssislərinin iştirakı ilə “İngilis dilinin tədrisinin təkmilləşdirilməsi yolları” mövzusunda seminarlar təşkil olunmuşdur. Buraya dövlət məktəblərindən də müəllimlər dəvət olunmuş və iştirakçı müəllimlərə diplomlar verilmişdir.

“Dünya” məktəbinin müasir standartlara cavab verən böyük konfrans zalı bu tədbirlərin yüksək səviyyədə keçirilməsinə şərait yaradır. Keçirilən hər bir tədbir müxtəlif mətbuat orqanlarında və televiziya kanallarında öz əksini tapmışdır.

Xəzər Universitetinin “Xəzər Xəbər” jurnalında “Dünya” məktəbinin xüsusi bölməsi vardır. Müəllim və şagirdlərin maraqlı məqalələri, şeir və hekayələri oxucuların böyük marağına səbəb olur. “Dünya” məktəbinin fəaliyyətini əks etdirən yazılar müntəzəm olaraq jurnalda nəşr olunur.

“Dünya” məktəbinin önəm verdiyi cəhətlərdən biri də məktəbin istehsalatla əlaqəsini yaratmaqdır. Şagirdlərin istehsalat sahələrinə ekskursiyaları onların gələcəkdə düzgün ixtisas seçimi etmələrində çox əhəmiyyətlidir.

Bu məqsədlə ”Dünya” məktəbinin şagirdləri bir sıra istehsalat sahələrinə, o cümlədən Xəzər Enerji Mərkəzinə, “İnci” şirkətinin dəftər və ofis ləvazimatlarının istehsalı sexinə, Binəqədi Neftçıxarma idarəsinə məxsus Siyan Şor neft məntəqəsinə və s. yerlərə səfərlər etmişlər.

**Məktəbin uğurları**

“Dünya” məktəbində tədris prosesinin təşkilinə yeni münasibət, yeni metodların tətbiqi, şagirdlərin yüksək bilik və bacarıqlara yiyələnməsi sayəsində uğurlar ilbəil artır.

Bu ilədək məktəbin 4 buraxılış sinfi olmuşdur. Məzunlar Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının

ali və orta ixtisas məktəblərinə tələbə qəbulunun elmi - statistik təhlilinə görə yüksək nəticələr göstərərək 100% -lik göstərici ilə respublikamızın universitetlərinə qəbul olunmuşlar.

2011 - 2012-ci tədris ilinin sonunda 1 məzun Poladov Araz Gülmirzə oğlu “Qızıl medal”a layiq görülmüşdür.

Məktəbin məzunlarının səsi eyni zamanda ABŞ-ın, İngiltərənin, Türkiyənin və digər xarici ölkələrin tanınmış ali təhsil ocaqlarından gəlir.

Məzunlar Azərbaycanda aldıqları ali təhsili xarici ölkələrdə, o cümlədən Koreyada, Yaponiyada, ABŞ-da, İngiltərədə, Türkiyədə və Kanadada təkmilləşdirirlər.

Məktəbdə fəaliyyət göstərən dərnəklərin (rəsm, idman, musiqi, dram, informatika və s.) yüksək səviyyədə fəaliyyəti şagirdlərin qazandıqları uğurlarla sübut olunur.

2010-cu ildə AZUS-Xaricdə təhsil şirkətinin və Amerika səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən, 23 məktəbin iştirak etdiyi ingilis dili festivalında şagirdlər tamaşa nominasiyası üzrə 1-ci, mahnı nominasiyası üzrə isə 3-cü yeri qazanaraq diplom və qiymətli hədiyyələrə layiq görülmüşlər.

2011-2012-ci tədris ilində Xocalı soyqrımı ilə əlaqədar olaraq “Aydınlığa doğru” cəmiyyətinin “Uşaqlar müharibəyə yox deyir” adlı sərgidə məktəbin VII sinif şagirdi Səmədova Dinarə Taleh qızı III yerin qalibi olmuşdur.

2011- 2012 - ci tədris ilində X sinif şagirdi Əliyev İslam Ruhulla oğlu şahmat üzrə Bakı şəhər çempionatında I dərcəqazanmışdır.

IX sinif şagirdi Həsənov Rüstəm 2012- ci ilin yanvar ayında keçirilmiş boks üzrə Bakı şəhər birinciliyində I yerə çıxmışdır.

2009 - cu ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və İctimai Televiziyanın təşəbbüsü ilə 25 müxtəlif lisey və orta məktəb şagirdləri arasında “Virtual Rinq” intellektual televiktorinasının “Super final”mərhələsində məktəbin komandası 5 komanda içərisində qalib gələrək, intellektual televiktorinanın qalibi elan edilmişdir.




Zəka və bacarıqlarını məharətlə nümayiş etdirən məktəblilər televiktorinanın medal və noutbukları ilə təltif olunmuşlar.

VII sinif şagirdi Həsənzadə Nigar Elxan qızının 2012 -ci ildə İçərişəhərdəki Bakı Rəsm Qalereyasında “Naxışlar danışır” adlı sərgisi keçirilmişdir. Sərgitamaşa çılar tərəfindən çox maraqla qarşılanmışdır.

2012-ci ildə Azərbaycan Respublikası üzrə keçirilən İnformatika layihə olimpiadasında VII sinif şagirdləri Həsənzdə Nigar Elxan qızı, Məmmədli İnci Mübariz qızı animasiya kateqoriyası üzrə II yeri tutmuşlar.

2009-2010-cu tədris ilində “Dünya” məktəbi “Yaxşı məktəb nədir” mövzusunda respublika miqyaslı konfrans keçirmişdir. Mötəbər təhsil işçilərinin, alimlərin, psixoloqların, jurnalistlərin, valideynlərin iştirak etdiyi bu konfrans sübut etmişdir ki, “Yaxşı məktəb” təkcə maddi-texniki bazası, imkanları, yüksək təlim-tərbiyə səviyyəsi və keyfiyyət göstəriciləri ilə deyil, eyni zamanda ləyaqətli, cəmiyyət üçün dəyərli insan yetişdirmək missiyasını əsas tutmalıdır.

